# Kazuslar

**Tapşırıq 1 - DİN əsaslı ayrı seçkilik**

Finlandiyada yaşayan və yəhudi dininə etiqad edən Semyon öz dini adətlərinə riayət edərək şənbə günləri işləməkdən imtina etdiyinə görə işdən azad edilib. O, iddia edirdi ki, onun işdən azad edilməsi onun din azadlığı hüququnu pozub. Ərizəçi hesab edirdi ki, ona qarşı edilən bu hərəkət ayrı-seçkilikdir və 9-cu maddə ilə birlikdə götürülməklə 14-cü maddənin pozuntusudur. Çünki onun işəgötürəni xristian adətinə uyğun olaraq həmkarlarının bazar günü işləməmək hüququna hörmət etsə də, yəhudi adətinə uyğun olaraq onun şənbə günü işləməmək hüququna hörmət etməyib.

Tərəflərin arqumenti nə ola bilərdi?

Sizcə, Məhkəmə hansı qərarı qəbul edib?

**Cavab: 9-cu maddə barəsində iddiaya gəldikdə Məhkəmə müəyyən etdi ki, dini mənsubiyyətə görə deyil, dini adətə iş saatlarında riayət etmək istədiyininə görə ərizəçi işdən azad edilib. Buna görə də işləməkdən imtina 9-cu maddənin təsiri dairəsinə düşə bilməz.**

**14-cü maddə barəsində iddiaya gəldikdə, Komissiya qərara aldı ki, ərizəçinin digər dini icmaların üzvləri ilə müqayisə oluna bilinən vəziyyətdə olduğunu fərz etsək, o, həmin üzvlərinə nisbətən fərqli rəftara məruz qalmayıb. Məhkəmə ərizəçiyə və onun dininə mənsub olan digər üzvlərə sözügedən tədbirin qeyri-mütənasib təsirini rədd etdi və qərara aldı ki, 14-cü maddə pozulmayıb.**

**Lakin Məhkəmə hesab etdi ki, işin halları hər hansı şəxslərlə fərqli rəftarı tələıb etdiyi halda dövlət bunu etmirsə, 14-cü maddə bu cür işlərə də tətbiq edilə bilər. İşin hallarının fərqli rəftarı tələb etməsinə baxmayaraq, bu cür rəftarın olmadığı işlərdə dövlətin gətirdiyi əsasları Məhkəmə fərqli rəftarın olduğu işlərlə eyni qaydada təhlil edir (Konttinen Finlandiyaya qarşı – 1996)**

**Tapşırıq 2 - DİN əsaslı ayrı seçkilik**

Yunanınstanın Kanea şəhərindəki Roma katolik kilsəsinin qonşusu həmin kilsəni əhatə edən divarlardan birini sökmək istəyərkən, kilsə ilə qonşu arasında mülki mübahisə yaranmışdı. Bu zaman kilsə məhkəmədə iddia qaldıra bilmirdi. Çünki yunan məhkəmələri qərarlar çıxarmışdılar ki, o, hüququ şəxs statusuna malik deyil, buna görə də iddiaçı və ya cavbdeh ola bilməz. Kilsə iddia edirdi ki, o, ayrı-seçkiliyin qurbanıdır, çünki yunan məhkəmələrinin qərarları yalnız din meyarlarına əsaslanıb. Halbuki, həm yunan provaslav kilsəsi, həm də yəhudi icması hüquqi şəxs statusuna malik olmaqla məhkəmədə iddia qaldıra bilirdilər.

Tərəflərin arqumenti nə ola bilərdi?

Sizcə, Məhkəmə hansı qərarı qəbul edib?

**Cavab: Məhkəmə qərara aldı ki, 6-cı maddənin 1-ci bəndi (ədalətli məhkəmə araşdırması hüququ) ilə birlikdə götürülməklə, 14-cü maddə (ayrı-seçkiliyin qadağan edilməsi) pozulub. Çünki həm yunan provaslav kilsəsi, həm də yəhudi icması hüquqi şəxs statusuna malik idilər və Yunanıstan hüququna əsasən mülkiyyət hüquqlarını müdafiə edə bilirdilər: buna görə də Roma katolik kilsəsi ilə fərqli rədftar edilməsi üçün obyektiv və ağlabatan əsas yox idi. (**Kanea katolik kilsəsi Yunanıstana qarşı iş**)**

**Tapşırıq 3 - DİL əsaslı ayrı seçkilik**

Polyakdilli bir şəxs Avstriya dövlətində cinayət məsuliyyətinə cəlb edilib. Həm istintaq, həm də məhkəmə baxışı zamanı ona iş materailları ilə öz ana dilində tanış olmaq üçün kifayət qədər yazılı və şifahi tərcümə şəraiti yaradılmamışdı.

Ərizəçi iddia edir ki, onun 6-cı maddədə nəzərdə tutulan ədalətli məhkəmə araşdırması hüququ və 14-cü maddədə nəzərdə tutulan ayrı-seçkiliyə məruz qalmamaq hüququ polulub, çünki o, qeyri-almandilli müttəhim olduğuna görə o, almandilli müttəhimlərin malik olduğu imtiyazlardan məhrum idi.

Tərəflərin arqumenti nə ola bilərdi?

Sizcə, Məhkəmə hansı qərarı qəbul edib?

**Cavab: Məhkəmə etiraz edilən faktları həmçinin 14-cü maddə üzrə araşdırmağı gərəksiz hesab etdi. Çünki bu maddədə yer alan ayrı-seçkiliyin yolverilməzliyi haqqında qayda bu işin kontekstində artıq 6-cı maddə üzrə araşdırmada öz əksini tapmışdır.**

**Məhkəmə qeyd etdi ki, əgər digər maddənin pozulması müəyyən edilibsə, 14-cü maddənin pozulması adətən tələb olunmur. Lakin sözügedən hüququn həyata keçirilməsinə qarşı rəftarda açıq-aydın bərabərsizlik işin mühüm aspektini təşkil edirsə, vəziyyət başqa cür olur: bu hal 6-cı maddənin 1-ci bəndini pozulduğu müəyyən edildiyi bu iş üzrə icraata aid deyil. Müvafiq surətdə Məhkəmə bu işi 14-cü maddə üzrə də araşdırmağı zəruri saymır. (Kamazinski Avstriyaya qarşı - 1989)**

**Tapşırıq 4 – DİN əsaslı ayrı seçkilik**

Yunanıstanın yüksək ixtisaslı mühasib olan və "İyeqova şahidləri" təriqətinə mənsub olan ərizəçini vəzifəyə təyin etməkdən imtina etmişdilər. Çünki o, yunan hərbi formasını geymək əmrinə tabe olmadığına görə vaxtilə cinayət cəzasına məhkum olunmuşdur.

Ərizəçi iddia edirdi ki, hərbi formanı geyməkdən ona görə imtina edib ki, "İyeqova şahidləri" pasifizmə sadiqdirlər və bu səbəbdən onun əqidəsinə görə ərizəçinin dini onun hərbi forma geyməsinə yol vermir. O, iddia edirdi ki, Konvensiyada nəzərdə tutulan hüquqları pozulub və ayrı-seçkiliyə məruz qalıb. Yunanıstan hüququ onunla hər hansı digər cinayətkar kimi rəftar edib, halbuki onun məhkumluğu dini əqidə azadlığının həyata keçirilməsi səbəb olmuşdur.

**Cavab: bax kitab 326 və 364-cü səhifələr \ Tlimmenos Yunanistana qarşı iş (2000) – "İyeqova şahidləri"**

**Tapşırıq 5 – MİLLİYYƏT əsaslı ayrı seçkilik**

Ərizəçi Avstriyada yaşayan və işləyən türk vətəndaşı idi. O, Avstriya vətəndaşı olmadığına görə işsizlik müavinəti növünü almaq hüququndan məhrum edilmişdir. Ərizəçi iddia edir ki, belə fərqli rəftarın obyektiv və ağlabatan əsası yoxdur.

Dövlət iddia etdi ki, öz vətəndaşları qarşısında dövlətin xüsusi məsuliyyət daşıması fərqli rəftara haqq qazandırır. Dövlət həmçinin iddia etdi ki, müvafiq qanunvericilikdə iddia edirdi ki, müəyyən istisnalar nəzərdə tutulub.

Sizcə, Məhkəmə hansı qərarı qəbul edib?

**Cavab: Məhkəmə hesab etdi ki, ərizəçi Avstriyada qanuni əsaslarla yaşayırdı və onun orada işlədiyi müddətdə işsizlər üçün siğorta fonduna vəsait ödəyirdi. Onun hər hansı digər fövqəaladə hallarda yardım üzrə şərtlərə riayət etməməmsi dövlət tərəfindən iddia edilməmişdir. Buna görə də o, konkret müavinət almaq baxımından hər hansı Avstriya vətəndaşı ilə eyni vəziyyətdə idi. Fərqli rəftarın hər hansı obyektiv və ağlabatan əsası yox idi.**

**Məhkəmə bu nəticəyə gəldi ki, yalnız milliyyətə əsaslanan fərqli rəftarın Konvensiyaya uyğun hesab edilə bilməsi üçün Məhkəməyə "olduqca əsaslı səbəblər" göstərilməlidir.**

**Qayğusuz Avstriyaya qarşı iş (1996)**

**Tapşırıq 6 – GENDER əsaslı ayrı seçkilik – kişilərə münasibətdə**

Uillis və Culiya 7 illik rəsmi evli olublar. Onlarin birgə nikahından 3 uşaqları olub. Onlar evli olduqları müddətdə hər ikisi işləyiblər. Qadın bankda işlədiyi üçün onun gəlirləri ərindən təxminən 2 dəfə çox idi, həmçinin iş vaxtı da ərindən çox idi. O, evliliklərinin 7-ci ilində xəstəlikdən vəfat etdi. Bundan sonra Uillis uşaqlarına bütün gün ərzində qulluq etmək üçün işdən çıxdı.

O, sosial təminat və müavinatlar haqqında qanunvericilikdə dul qadınlar üçün güzəştlərin nəzərdə tutulduğu halda, oxşar vəziyyətdə olan dul kişilərə həmin güzəştlər nəzərdə tutulmayıb. Uillis ona qarşı ayrı-seçkiliyə yol verildiyini iddia etdi.

Uillis Konvensiyanın hansı maddəsi üzrə hüquqlarının pozulduğunu iddia edə bilərdi?

Tərəflərin arqumenti nə ola bilərdi?

Sizcə, Məhkəmə hansı qərarı qəbul edib?

**Cavab: Məhkəmə hesab etdi ki, güzəştlərin verilməməsi yalnız ərizəçinin cinsi mənsubiyyətinə əsaslanıb. Ərizəçi ilə eyni vəziyyətdə olan qadın müavinət almaq hüququna malik idi. Kişi ilə qadına münasibətdə fərqli rəftarın hər hansı "obyektiv və ağlabatan əsası" yox idi. Və həmin rəftar 1 saylı Protokolun 1-ci maddəsi ilə birlikdə götürülməklə Konvensiyanın 14-cü maddəsinin pozuntusunu təşkil edib.**

**Məhkəmə qeyd edib ki, ərizəçinin arvadı nikahda olduqları vaxtda işləmişdi və ailənin əsas gəlir gətirən üzvü (ailə başçısı) idi. O, vəfat edərkən ərizəçi bütün gün ərzində uşaqlarına qulluq etmək üçün işdən çıxdı. Qanunvericiliyin arxasında duran siyasət belə bir ehtimala əsaslanırdı ki, ərdə olan qadınlar nadir hallarda işləyilər və ərlərinin gəlirlərindən daha çox asılı olurlar və beləliklə də, onların maliyyə yardımına ehtiyacları dul qalmış kişilərlə müqayisədə daha çoxdu. Halbuki, bu fərqli ola də ola bilərdi. Lakin hökümət bu əsası nəzərə almayıb.**
**Uillis İngiltərəyə qarşı iş (2007)**

**Tapşırıq 7 – GENDER əsaslı ayrı seçkilik – qadınlara münasibətdə**
Ərizəçi və onun anası ərizəçinin əri və qayınatası tərəfindən məişət zorakılığına məruz qalmaları barədə (pulun tələb edilməsi, döyülmə və öldürülməklə hədələmə) müvafiq hüquq mühafizə orqanlarına müraciət edirlər.
İlk dəfə ərizəçi zorakılıqla bağlı 10 aprel 1995-ci il tarixdə yerli hüquq mühafizə orqanlarına müraciət edərkən, ona qarşı törədilmiş zorakılığı sübut edən tibbi rəyləri də ərizəyə əlavə edib.
Ərizə əsasında araşdırmaya başlanılsa da, ərizəçi və onun anası şikayətlərini geri götürdüklərinə görə məhkəmə tərəfindən işə xitam verilib.
Ölümlə hədələmə ittihamı ilə bağlı aparılan iş üzrə isə təqsirləndirilən şəxslər yetərli sübut olmadığı səbəbi əsasında bəraət almağa müvəffəq olublar.
Ərizəçi **ikinci dəfə** döyüldükdən sonra (tibbi rəyə görə xəsarətlər həyat üçün təhlükə yaradırdı) iş üzrə cinayət işi açılıb və ərizəçinin əri barəsində həbs qətimkan tədbiri seçilib.
Lakin ərizəçinin sağaldığını və hüquq pozuntusunun xarakterini nəzərə almaqla məhkəmə tərəfindən həbs qətimkan tədbiri ləğv edilib və ərizəçinin əri azadlığa buraxılıb.
Müəyyən müddət sonra ərizəçi şikayətini geri götürdüyünə görə iş üzrə icraata məhkəmə tərəfindən xitam verilib.
**Üçüncü dəfə** ərizəçi və onun anası daha ağır məişət zorakılığına məruz qalıblar. Nəticədə ərizəçi, onun anası və ərizəçinin əri bir birinə bıçaqla xəsarət yetiriblər.
Lakin prokuror bu qənaətə gəlib ki, cinayət təqibinə başlamaq üçün kifayət qədər sübut yoxdur.
Bundan sonra ərizəçinin əri avtomobili ərizəçinin və onun anasının üstünə sürüb. Tibb müəssisəsi tərəfindən müəyyən edilib ki, ərizəçinin anası həyatı üçün təhlükə yaradan xəsarət alıb.
Ərizəçinin əri barəsində həbs qətimkan tədbiri seçilsə də, o, bu dəfə də müəyyən müddət sonra azad edilib. Nəticədə ərizəçinin əri üç ay müddətinə həbs və cərimə cəzalarına məhkum edilib, həbs cəzası sonradan cərimə ilə əvəz olunub.
Bir müddət sonra ərizəçinin əri ona yeddi bıçaq zərbəsi vuraraq onu yaralayıb. Lakin ərizəçinin əri nəticədə sadəcə cərimə cəzasına məhkum edilib.
Bundan sonra da ərizəçinin əri ərizəçini və onun anasını təhdid edib, sonunda isə ərizəçinin əri atəş açaraq ərizəçinin anasını öldürüb.
Hətta ərizəçinin əri törətdiyi cinayətə görə yerli məhkəmə tərəfindən 15 il 10 ay müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsə də, hökmün qüvvəyə minməsinə qədər sonuncunun azadlıqda qalması barədə qərar qəbul edilib.
Belə olan hala ərizəçi artıq keçmiş əri tərəfindən yenidən təhdidlərə məruz qaldığından yetərli müdafiənin təmin edilməsi üçün müvafiq orqana müraciət etmək məcburiyyətində qalıb.
Ərizəçinin hansı hüquqları pozulub?
Ayri-seçkiliyə məruz qalıbmı?

Cavab: Ərizəçi Məhkəməyə onun və anasının Konvensiyanın 2, 3, 6, 13, 2 və 3-cü maddələri ilə birgə götürməklə 14-cü maddənin pozuntusu ilə bağlı ərizə ilə müraciət edib.
**Opuz Türkiyəyə qarşı iş** (09.09.2009-cu)

*Hazırladı: Şəfa Camalzadə*